# Xatirələrdə yaşayan insan

**Azərbaycan Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli adına konsert salonunda görkəmli musiqişünas-alim, fəlsəfə elmləri doktoru, professor, "Qızıl qələm" mükafatı laureatı Babək Qurbanovun anadan olmasının 80 illiyinə həsr olunmuş anım tədbiri və onun "Qara Qarayev yaradıcılığının bədii-estetik xüsusiyyətləri" adlı kitabının təqdimat mərasimi keçirildi.**





Tədbiri açıq elan edən Azərbaycan Bəstəkarlar İttifaqının sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti professor Firəngiz Əlizadə öz çıxışında işığına toplaşdığımız mərhum Babək Osman Sarıvəlli oğlu Qurbanovun anadan olmasının 80 illiyi münasibətilə zala toplaşanları, musiqişünasları, bəstəkarları, jurnalistləri, babəksevərləri, onun qohumlarını və ailəsini salamladı və Babək Qurbanovun "Qara Qarayev yaradıcılığının bədii-estetik xüsusiyyətləri" kitabı haqqında öz fikirlərini açıqladı. Qeyd etdi ki, Qara Qarayev çox böyük şəxsiyyət, XX əsrin ən tanınmış musiqişünas alimi olmuşdur. Onun yaradıcılığı ilə bağlı çox kitablar yazılıb, çap olunub. Babək Qurbanovun bu kitabında isə başqalarının demədiyi gözəl fikirlər, məlumatlar toplanıb. Bu kitabda müəllifin öz müəlliminə tükənməz məhəbbətinin parlaq ifadəsi oxucunu özünə cəlb edir. Kitab oxunduqca oxunur. Müəllif bildirir ki, onun musiqi sahəsində Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsində böyük xidmətləri olub. Babək müəllimin qəlbimizdə yeri var, onun ruhu bizimlədir. Və onu sevənlərin xatirəsində əbədi yaşayacaqdır.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor İmruz Əfəndiyeva "Babək Qurbanovun" elmi yaradıcılığında "Qara Qarayev irsinə müraciət" mövzusunda çıxış etdi: "...Babək müəllimi musiqi duyumlu, geniş yaradıcılıq imkanları olan bir şəxsiyyət kimi tanıyırdım. Onun Qara Qarayev yaradıcılığına müraciət etməsi öz müəlliminə tükənməz məhəbbətin parlaq ifadəsi kimi dəyərləndirilməlidir.

Sənətşünaslıq elmləri doktoru, professor Cəmilə Həsənova Babək Qurbanovun "Qara Qarayev yaradıcılığının bədii-estetik xüsusiyyətləri" kitabı haqqında məruzəsində qeyd etdi ki, mən Babək müəllimin kitabının redaktoru olmuşam. Musiqi estetikası üzrə fəlsəfə doktoru, professor Babək Qurbanovun ömrünün son çağlarında yazıb tamamladığı, böyük bəstəkarımız Qara Qarayevin ömür və yaradıcılıq yoluna güzgü tutan "Qara Qarayev yaradıcılığının bədii-estetik xüsusiyyətləri (proqramlı musiqi)" əsəri onun öz müəlliminə sonsuz məhəbbətinin əyani ifadəsi kimi diqqət və maraq kəsb edir. Çox təəssüf ki, Babək müəllimə öz kitabının çap variantını görmək qismət olmadı.

Fəlsəfə elmləri doktoru, professor Əsədulla Qurbanov Babək Qurbanovun pedaqoji fəaliyyəti haqqında geniş məruzə ilə çıxış etdi. Və qeyd etdi ki, Babək müəllim ilk təhsilini Ü.Hacıbəyovun adını daşıyan Azərbaycan Dövlət Konservatoriyasının nəzdində 10 illik musiqi təmayüllü məktəbdə almışdır. Kiçik yaşlarından skripka, piano və digər musiqi alətlərinə maraq göstərmiş, Azərbaycan bəstəkarı Cövdət Hacıyevdən bəstəkarlıq dərsləri almış, 1962-ci ildə Konservatoriyanın musiqişünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1967-ci ildə namizədlik dissertasiyasını müdafiə etmiş, 1981-ci ildə elmlər doktoru, 1985-ci ildə professor diplomuna layiq görülmüşdür. O, 1982-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun estetika və etika şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1992-2008-ci illərdə Türkiyədə elmi ezamiyyətdə olmuş, orada türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkün adını daşıyan Atatürk Universitetində, 2008-ci ildən sonra isə Qaziantep Universitetində Türk musiqisi Konservatoriyasında professor vəzifəsində çalışmışdır. Babək Qurbanov 50-yə yaxın kitabın, 700-dən çox elmi-kütləvi məqalənin müəllifidir.

"Qara Qarayev yaradıcılığının fəlsəfi, bədii-estetik xüsusiyyətləri"adlı fundamental monoqrafiyası Babək Qurbanovun elmi yaradıcılığının ən qiymətli və son akkordu kimi dəyərləndirilməlidir. Onun xatirəsi sənətsevər insanların qəlbində daim yaşayacaqdır.

Daha sonra yığıncaqda "Babək Qurbanovun musiqişünaslıq fəaliyyəti haqqında" filologiya elmləri doktoru, professor Rüstəm Kamal, "Qara Qarayev yaradıcılığının bədii-estetik xüsusiyyətləri" mövzusunda kitabın naşiri, şair Musa Ələkbərli, rəssam, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Səyyad Bayramov, Azərbaycanda yaşayan pakistanlı həkim-psixoloq doktor Cəfər Cağatay və başqaları öz çıxışlarında tükənməz həyat eşqi ilə yaşayan Babək Qurbanovun "Qara Qarayevin yaradıcılığının fəlsəfi, bədii-estetik xüsusiyyətləri" monoqrafiyasının əhəmiyyətindən söhbət açdılar. Və qeyd etdilər ki, illər keçəcək, qədirbilən xalqımızın yeni-yeni nəsilləri Qara Qarayevin ölməz əsərləri ilə həyatın əsrarəngiz gözəlliyini daha dərindən dərk edəcək və Qara Qarayevin ölməz xatirəsini heç vaxt unutmayacaqlar.

Tədbirdə ölməz sənətkarımız Qara Qarayevin simfonik poemaları səsləndirildi, Xalq artisti Gülnaz İsmayılovanın ifasında "Mən səni sevdim", "Gürcüstan təpələrində", Behbud Ağakişiyev "Ninnə yarım" mahnısını ifa etdi. Aşıq Bəkir Həsənov "Dübeyti", "Ağır şərili" havalarını səsləndirdi.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**
**S.MƏMMƏD (foto).**